**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ HƏRBİ SAHƏDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞI

| | |
|---|---|
| İxtisas: | 5507.01 – Beynəlxalq münasibətlər tarixi |
| Elm sahəsi: | Tarix |
| İddiaçı: | **Gülarə Məmmədhüseyn qızı Bağırova** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix elmləri doktoru, professor
**Musa Nizam oğlu Quliyev**

Rəsmi opponentlər: tarix elmləri doktoru, dosent
**Aidə Rəhim qızı Bağırova**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Mahir Nadir oğlu İbrahimov**

tarix üzrə fəlsəfə doktoru
**Ceyhun Mübariz oğlu Ələkbərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının Elmi katibi: tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
**İsmayıl Məhərrəm oğlu Musa**

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə cərəyan edən hadisələr dünyanın sabit və təhlükəsiz olmadığını göstərir. Hərbi qarşıdurmaların davam etməsi, beynəlxalq terrorizmin geniş vüsət alması, iqtisadi və təbii sərvətlər uğrunda mübarizə ilə müşayiət olunan geosiyasi güç mərkəzlərinin formalaşması bütün dünya üçün ciddi təhdidə çevrilməkdədir. Belə bir şəraitdə hər bir ölkə öz hərbi və milli təhlükəsizliyini təmin etmək üçün müdafiə qabiliyyətinin gücləndirilməsində maraqlıdır. Azərbaycan Respublikasında da bu müstəvidə həyata keçirilən işlər dövlətin həm daxili, həm də xarici siyasətinin prioritetlərindən biridir. Güclü ordunun formalaşdırılması, onun döyüş qabiliyyətinin daim yüksək səviyyədə saxlanılması, ən müasir silah və texnika ilə təchiz edilməsi, eyni zamanda xarici texniki və hərbi təcrübənin öyrənilməsi istiqamətində qonşu və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla hərbi əməkdaşlıq əlaqələrinin, tərəfdaşlıq və ya müttəfiqlik münasibətlərinin qurulması bu prioritetləri təşkil edən əsas meyarlardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, *"hazırda dünyada yeni çağırışlar və təhdidlər var. Bu səbəbdən digər sahələr ilə yanaşı ölkələrimiz arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığın genişləndirilməsi böyük önəm daşıyır"*[1]. Bu baxımdan, Azərbaycanda mövcud istiqamətdə dövlət siyasətinin araşdırılması tədqiqat işinin aktuallığını şərtləndirən əsas amillərdən biridir.

Azərbaycan 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra dövlətin təhlükəsizliyinin, suverenliyinin və ərazi bütövlüyünün müdafiəsini təmin etmək üçün milli ordunun yaradılması qarşıda duran prioritet məsələlərdən idi. Bu məsələnin vacibliyi 1988-ci ilin əvvəllərindən Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və bu ölkənin Azərbaycan torpaqlarına silahlı hücumlara başlaması ilə özünü bariz şəkildə göstərdi.

---

[1] Azərbaycan, Türkiyə və Türkmənistan prezidentlərinin geniş tərkibdə görüşü keçirilib: [Elektron resurs] - 14 dekabr, 2022. /URL: https://president.az/az/articles/view/58192

Müstəqilliyin ilk illərində nizami ordu quruculuğu istiqamətində islahatlar həyata keçirməyə başlayan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mövcud sahədə beynəlxalq təcrübənin öyrənilməsinə, xarici dövlətlərin hərbi qurumları və beynəlxalq təşkilatlarla əməkdaşlığa böyük önəm verirdi. 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" (SNT) proqramının çərçivə sənədini imzalayan Prezident Heydər Əliyev Şimali Atlantika bloku ilə əməkdaşlığın əhəmiyyətinə toxunaraq, ordunun qurulması prosesində NATO təcrübəsindən faydalanmağın vacibliyini və bu faktorun Azərbaycan-NATO əməkdaşlığının ən mühüm mərhələsi olmasını vurğulayırdı[2]. Beləliklə, Azərbaycanın ordu quruculuğu sahəsində Şimali Atlantika Alyansı ilə hərbi tərəfdaşlığının müasir vəziyyətinin və inkişaf perspektivlərinin araşdırılması öz aktuallığı və elmi əhəmiyyəti ilə diqqəti cəlb edir.

Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri ilk növbədə qonşu dövlətlərlə və əməkdaşlığın konkret praktiki nəticələr verə biləcəyi ölkələrlə dostluq, bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı münasibətlər yaratmaqdır. Bu ölkələrlə hərbi sahədə əməkdaşlığın və müttəfiqlik münasibətlərinin qurulması regional təhlkəsizliyin təmin edilməsi baxımından çox önəmlidir. Azərbaycanın Türkiyə, Rusiya, Gürcüstan, Pakistan, İsrail, Ukrayna, Belarus Respublikası, Mərkəzi Asiya ölkələri ilə hərbi-siyasi və hərbi-texniki sahədə həm ikitərəfli, həm də çoxtərəfli hərbi əməkdaşlığın Azərbaycan üçün əhəmiyyətli olan tərəflərinin təhlili də mövzunun aktuallığını şərtləndirən amillərdəndir.

Müasir dünyada dövlətlərin yeni təhlükəsizlik çağırışları ilə üzləşməsi səbəbindən hərbi-texniki əməkdaşlığın aktuallığının daha da artdığını vurğulayan Azərbaycan Prezidenti İlham Əliyev, Hərbi Doktrina çərçivəsində ölkəmizin tərəfdaş dövlətlərlə mövcud istiqamətdə işbirliyinə yüksək maraq göstərdiyini qeyd edir[3]. Qarşılıqlı maraqlar çərçivəsində həyata keçirilən hərbi-texniki əməkdaşlıq nəticəsində Azərbaycan ordusunun arsenalına dünyanın bir çox

---

[2] General Ç.Makkenzi ilə görüşdə // Azərbaycan. - 1995, 8 iyun

[3] Prezident İlham Əliyev: Dövlətlərin yeni təhlükəsizlik çağırışları ilə üzləşməsi hərbi-texniki əməkdaşlığın aktuallığını daha da artırıb: [Elektron resurs] - 11 sentyabr, 2014. /URL: http://az.trend.az/news/politics/2310453.html

ölkəsində istehsal olunan ən müasir silah və texnikalar daxil olmuşdur. Hərbi sənaye kompleksinin yaradılmasında da məhz Azərbaycanın dünyanın bir çox ölkəsi ilə əməkdaşlığının böyük rolu olmuşdur. 2014-cü ildən başlayaraq Azərbaycanda keçirilən Beynəlxalq Müdafiə Sənayesi sərgiləri də öz növbəsində, xarici dövlətlərlə hərbi-texniki sahədə əməkdaşlıq üçün uğurlu bir platformaya çevrilmişdir. Ölkəmizin mövcud istiqamətdə xarici dövlətlərlə əməkdaşlığının inkişaf dinamikasının tədqiqi də öz növbəsində, maraq doğuran məqamlardandır.

Bu bir həqiqətdir ki, hərbi quruculuq sahəsində həyata keçirilən ardıcıl islahatlar nəticəsində Azərbaycan Silahlı Qüvvələri bu gün Cənubi Qafqazın ən güclü ordusuna çevrilmişdir. 44 günlük Vətən müharibəsi bunu bir daha təsdiqlədi. Azərbaycan Ordusu tərəfindən müharibə meydanında tətbiq edilən döyüş taktikaları dünya hərb tarixində yenilik hesab olunur və onların öyrənilməsinə böyük maraq göstərilir.

Bu gün Azərbaycan hərbçiləri xarici dövlətlərin Silahlı Qüvvələri ilə birgə hərbi təlimlər həyata keçirirlər. Bütün qoşun növlərini əhatə edən Azərbaycan-Türkiyə taktiki təlimlərinin sayı ildən-ilə artmaqdadır. Bu təlimlər üçtərəfli formatda da uğurla reallaşdırılır (Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-Türkiyə-Pakistan hərbi təlimləri). Eyni zamanda Azərbaycanın Silahlı Qüvvələrinin hərbi heyəti BMT-nin sülhməramlı əməliyyatlarında iştirak edərək sülhün və beynəlxalq təhlükəsizliyin təmin olunması prosesinə öz töhfələrini verməkdədirlər. Bundan əlavə, Azərbaycanın Cənubi Qafqazda sülhün və əmin-amanlığın, eyni zamanda təşəbbüskarı olduğu enerji və nəqliyyat layihələrinin təhlükəsizliyinin təmin olunması sahəsində region dövlətləri ilə geniş əməkdaşlıq əlaqələri mövcuddur. Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli strateji hərbi əməkdaşlığı bunun bariz nümunəsidir. Azərbaycan dövlətinin bu istiqamətdə apardığı siyasətin tədqiqi də mühüm elmi əhəmiyyət və aktuallıq kəsb edir.

Beləliklə, yuxarıda göstərilən amillər Azərbaycan Respublikasının xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla hərbi sahədə əməkdaşlıq məsələlərinin daha ətraflı tədqiqini aktuallaşdırır.

Tədqiqat mövzusuna dair elmi ədəbiyyatda ayrıca əsər olmasa da, onun ayrı-ayrı aspektləri Azərbaycan və xarici ölkə tədqiqatçıları

tərəfindən müəyyən qədər araşdırılmışdır. Dissertasiyanın yazılışı zamanı həmin əsərlərə müraciət olunmuşdur.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının hərbi əməkdaşlıq əlaqələrinin əsası onun sələfi olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuşdur. Bu baxımdan, tədqiqat işində ilk növbədə, o dövrdə ölkədə aparılan hərbi quruculuq məsələləri ilə yanaşı Azərbaycan-Türkiyə, Azərbaycan-Gürcüstan hərbi əməkdaşlıq əlaqələri araşdırılmışdır. Həmin dövrdə ölkənin müdafiəsi üçün xüsusi əhəmiyyət kəsb edən Osmanlı Türkiyəsi ilə hərbi əməkdaşlıq və bunun nəticəsində yaradılmış Qafqaz İslam Ordusunun (QİO) Azərbaycanın istiqlaliyyəti uğrunda fəaliyyəti tarixi faktlara istinadən M.Süleymanovun[4], N.Yaqublunun[5], N.Nəsibzadənin[6], V.Qafarovun[7] əsərlərində araşdırılmışdır. Cümhuriyyət dövründə Azərbaycan-Gürcüstan hərbi-siyasi əlaqələri isə tədqiqatçı Z.Abdullayevin məqaləsində[8] araşdırılmışdır.

XX əsrin sonunda dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dövləti ordu quruculuğu prosesində daxili islahatları xarici dövlətlər və beynəlxalq təşkilatlarla hərbi sahədə əməkdaşlıq əlaqələrinin qurulması ilə paralel aparmışdır. Azərbaycanın xarici siyasətini araşdıran tədqiqatçılar öz əsərlərində respublikamızın region və regiondan kənar ölkələrlə, eyni zamanda beynəlxalq təşkilatlarla siyasi, iqtisadi, mədəni və s. sahələrdə əlaqələrini tədqiq edərkən hərbi sahədə həyata keçirilən əməkdaşlıq məsələlərinə də

---

[4] Süleymanov, M. Azərbaycan Xalq Cümhuriyyətinin hərb tarixi: [2 cilddə] / M.Süleymanov. – Tehran: Firuzan, - c. 1 - 2014, - 761s.; Süleymanov, M. Azərbaycan Xalq Cümhuriyyətinin hərb tarixi (1917-1918): [2 cilddə] / M.Süleymanov. – Tehran: Firuzan, - c. 2 - 2014, - 696 s.; Süleymanov, M. Azərbaycan Ordusunun tarixi / M.Süleymanov, - Bakı: Maarif, - c. 1 – 2018, - 736 s.; Süleymanov, M. Nuri paşa və silahdaşları. /M.Süleymanov. - Bakı: Nurlar, - 2014, - 536 s.

[5] Yaqublu, N. Cümhuriyyət qurucuları / N.Yaqublu. – Bakı: Nurlar, - 2018. – 504 s.

[6]Nəsibzadə, N.Azərbaycanın xarici siyasəti (1918-1920). / N.Nəsibzadə. – Bakı: Ay-Ulduz, - 1996. – 304s.

[7] Qafarov, V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922) / V.Qafarov. - Bakı: Azərnəşr, - 2011. - 474 s.

[8]Abdullayev Z. Azərbaycan Xalq Cümhuriyyəti və Gürcüstan Demokratik Respublikası arasında hərbi-siyasi əlaqələr (1918-1920) //- Bakı: Hərbi bilik, - 2016. N 5 , s.3-10

toxunmuşdular. Bu baxımdan, M.Qasımlının "Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003)" adlı ikicildlik monoqrafiyasının, 2017-ci ildə dərc edilmiş "Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016)" məqalələr toplusunun adını çəkmək olar. Bununla yanaşı, dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü münasibətilə çap edilmiş "Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə" məqalələr toplusunda xarici ölkələrin respublikamıza akreditə olunmuş səfirləri də təmsil etdikləri dövlətlərin Azərbaycan ilə hərbi sahədə əməkdaşlıq məsələlərinə müəyyən qədər yer vermişdilər. Müstəqilliyin ilk illərində Azərbaycan-ABŞ hərbi əməkdaşlıq məsələləri E.Nəsirovun əsərində[9], Azərbaycanın hərbi-siyasi müttəfiqi olan Türkiyə Respublikası ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığı türkiyəli tədqiqatçı Ahmet Yücenin[10], rusiyalı tədqiqatçı Y.F.Paruboçayanın[11], Azərbaycanın digər hərbi-siyasi müttəfiqi olan Pakistan İslam Respublikası ilə 1994-2010-ci illər ərzində hərbi əməkdaşlıq əlaqələri tədqiqatçı N.Niyazovun məqaləsində[12] araşdırılmışdır.

Azərbaycanın beynəlxalq hərbi əməkdaşlığında mühüm yer tutan NATO ilə münasibətlərin tədqiqi zamanı H.Hüseynovanın[13], E.Əhmədovun[14], A.Əliyevanın[15], hərbi ekspert C.Sümərinlinin[16]

---

[9]Nəsirov, E. Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər) / E.Nəsirov. - Bakı: Qanun,- 1998. –136 s.

[10] Ahmet Yüce. Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı (2003-2015) // - Bakı: Hərbi bilik, - 2016. N 1, s.79-104

[11] Парубочая Е.Ф. Сотрудничество Турции и Азербайджана в военной сфере на рубеже XX-XXI веков //Вестник Волгоградского государственного университета, - 2015. № 6 (36), - с. 24-37: [Электронный ресурс] / - URL:https://hfrir.jvolsu.com/index.php/ru/component/attachments/download/1048

[12] Ниязов, Н.С. Развитие азербайджано-пакистанских связей в военной области в 1994-2010 годах. // - Вестник Волгоградского государственного университета, - 2011. № 1 (19), - с. 104-112

[13] Hüseynova, H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində / H.Hüseynova. - Bakı: Hərbi Nəşriyyat, - 1998. - 280 s.

[14] Əhmədov, E. Azərbaycanın Avroatlantik institutlara inteqrasiyası NATO ilə əməkdaşlıq kontekstində uğurla davam edir // Xalq qəzeti. – 2009, 12 iyul. – s. 4; Əhmədov, E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər /E.Əhmədov. - Bakı: Letterpress, - 2013, - 452 s.

tədqiqatlarına müraciət olunmuşdur. H.Hüseynovanın "Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində" adlı kitabında Azərbaycanın NATO ilə ilk birbaşa əlaqələri, Alyansın SNT proqramının mahiyyəti, həmin proqramın "Çərçivə sənədinin" müddəaları, Azərbaycan rəhbərliyi tərəfindən hazırlanmış və təqdim edilmiş "Prezentasiya sənədi"ndə respublikamızın öhdəlik və vəzifələri açıqlanmış, Azərbaycan-NATO əlaqələrinin qurulmasında Türkiyənin rolu kimi məsələlər öz əksini tapmışdır. E.Əhmədovun "Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər" adlı tədqiqatında SNT proqramının məqsədləri göstərilmiş və Azərbaycanın bu proqrama qoşulmasının əhəmiyyəti təhlil edilmişdir. Azərbaycan-NATO hərbi əməkdaşlığının əsas mexanizmlərindən olan müxtəlif proqramların mahiyyəti C.Sümərinlinin "İrəliyə, NATO-ya doğru!" kitabında işıqlandırılmışdır. Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyi tərəfindən nəşr edilmiş "Azərbaycan-NATO 15 illik tərəfdaşlıq" kitabında da respublikamızın NATO ilə hərbi əməkdaşlıq məsələləri öz əksini tapmışdır. Azərbaycanın müdafiə naziri Z.Həsənov məqaləsində[17] SNT proqramını NATO ilə Azərbaycan Silahlı Qüvvələri arasında səmərəli hərbi əməkdaşlığın ən uğurlu mexanizmlərindən biri kimi qiymətləndirərək, Alyansın müxtəlif proqramlarında iştirakın əhəmiyyətini vurğulamışdır. Eyni zamanda məqalədə bu proqramların müasir ordu quruculuğunun əsaslarına söykənən müdafiə islahatlarının həyata keçirilməsində, zəruri əməliyyat uyarlığının təmin edilməsində və Silahlı Qüvvələrin transformasiyasında mühüm rol oynadığı qeyd olunmuşdur.

Dissertasiya işinin yazılışı zamanı ilkin mənbələrə, rəsmi dövlət sənədlərinə, dövlətlərarası imzalanmış saziş və digər beynəlxalq xarakterli sənədlərə istinad olunmuşdur. Mənbələr sırasında

---

[15] Əliyeva, A.M. NATO-da hərbi-siyasi islahatlar və Azərbaycan Respublikası / A.M.Əliyeva. – Bakı: Yeni Poliqrafist, - 2012, - 280 s.

[16] Sümərinli, C. İrəliyə, NATO-ya doğru! / C.Sümərinli. – Bakı: Əbilov, Zeynalov və oğulları, - 2007. – 232 s.

[17] Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov: "Azərbaycan ilə NATO arasında 25 illik dayanıqlı tərəfdaşlıq mövcuddur" // Azərbaycan Ordusu. – 2019, 4 may. – s. 2

ümummilli lider Heydər Əliyevin və Azərbaycan Prezidenti İlham Əliyevin nitqləri, bəyanatları, hərbi, hərbi-texniki əməkdaşlığa dair dünyanın müxtəlif ölkələrinin müvafiq qurumları ilə bağlanmış saziş, müqavilə və memorandumlar, dövlətlərarası imzalanmış bəyannamələr xüsusi yer tutur.

Tədqiqat prosesinə cəlb edilmiş mənbələr sırasında dövlət strukturlarının, beynəlxalq təşkilatların, xarici dövlətlərin Azərbaycandakı nümayəndəliklərinin, silah və hərbi texnika istehsal edən xarici şirkətlərin rəsmi internet saytlarından əldə edilmiş elektron resurslar və mətbuat materialları da yer almışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini Azərbaycan Respublikasının hərbi sahədə beynəlxalq əməkdaşlığı, predmetini isə Azərbaycanın xarici dövlətlərlə ikitərəfli və çoxtərəfli, eyni zamanda beynəlxalq və regional təşkilatlarla mövcud sahədə əlaqələrinin formalaşmasının, inkişaf dinamikasının və perspektivlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədini Azərbaycan Respublikasının xarici dövlətlər və beynəlxalq təşkilatlarla hərbi sahədə əməkdaşlıq əlaqələrinin tədqiqi təşkil edir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- Azərbaycanın Cümhuriyyət dövründə hərbi əməkdaşlıq əlaqələrinin analizi;
- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin inkişaf mərhələlərinin, hərbi quruculuğ sahəsində aparılan ölkədaxili islahatların və həyata keçirilən hərbi əməkdaşlıq əlaqələrinin araşdırılması;
- Beynəlxalq hərbi əməkdaşlığın əsas istiqamətlərinin müəyyənləşdirilməsi:
- Azərbaycanın qonşu dövlətlərlə, ABŞ və Avropa, Asiya və Afrika ölkələri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin inkişaf dinamikasının, müasir vəziyyətinin və inkişaf perspektivlərinin təhlili;
- Azərbaycan-NATO hərbi əməkdaşlıq əlaqələrinin, o cümlədən Azərbaycan hərbçilərinin BMT-nin sülhməramlı əməliyyatlarında iştirakının tədqiq edilməsi;

- Azərbaycanın MDB çərçivəsində hərbi əməkdaşlıq əlaqələrinin dəyərləndirilməsi.

**Tədqiqat metodları.** Tədqiqatın yazılışı zamanı faktların yığılması, sistemləşdirilməsi, təhlili və ümumiləşdirilməsi aparılaraq fərdi nəticələrə gəlinmişdir. Qarşıya qoyulmuş məsələlərin kompleks şəkildə öyrənilməsi üçün analiz, sintez, ümumiləşdirmə, tarixi yanaşma və induksiya kimi elmi-nəzəri metodlardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işində müdafiəyə aşağıdakı müddəalar çıxarılır:

- Beynəlxalq hərbi əməkdaşlıq Azərbaycan Respublikasının həm xarici, həm də müdafiə siyasətinin əsas istiqamətlərindən birini təşkil edir;
- Azərbaycan Respublikasının beynəlxalq hərbi əməkdaşlıq əlaqələrinin əsası müstəqilliyin ilk illərində ölkədə aparılan ordu quruculuğu prosesinin başlanılması ilə qoyulmuş və bu proseslə paralel həyata keçirilmişdir;
- ölkənin və regionun hərbi təhlükəsizliyinin təmin edilməsi yolunda hərbi-siyasi müttəfiqlərin əldə edilməsi mühüm əhəmiyyət kəsb edir;
- xarici dövlətlərlə hərbi-texniki sahədə əməkdaşlıq və xarici dövlətlərin müdafiə sənayesi müəssisələri ilə həyata keçirilən birgə layihələr Azərbaycan Ordusunun silah və texnika ilə təchizində və ölkənin hərbi sənaye kompleksinin inkişafında mühüm rol oynayır;
- Azərbaycan Respublikasının Simali Atlantika Alyansı ilə müdafiə sahəsində əməkdaşlığının əsas məqsədi ordu quruculuğu prosesinin təkmilləşdirilməsi, Silahlı Qüvvələrin modernləşdirilməsi və dünya standartlarına uyğunlaşdırmasından ibarətdir;
- Azərbaycan hərbçilərinin dünyada sülhün və təhlükəsizliyin təmin edilməsi məqsədilə BMT-nin sülhməramlı əməliyyatlarında iştirakı beynəlxalq aləmdə təqdir olunur;
- Azərbaycan Respublikasının xarici dövlətlərlə həyata keçirdiyi ikitərəfli və çoxtərəfli hərbi əməkdaşlıq əlaqələrinin inkişaf dinamikasının tədqiqi bu münasibətlərin gələcək illərdə də uğurla davam edəcəyini göstərir.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan Respublikasının hərbi və ordu quruculuğu sahəsində beynəlxalq əməkdaşlığının ayrı-ayrı

aspektlərinə həsr olunmuş yerli və xarici tədqiqatçıların bəzi araşdırmaları olsa da, ancaq bu günə kimi nə tarix, nə də siyasi elmlər sahəsində qoyulan problemə dair ayrıca tədqiqat əsəri mövcud olmamışdır. Dissertasiya işi həm xronoloji çərçivəsinə, həm də problemə kompleks yanaşmasına görə ilk tədqiqat əsəridir. Bu baxımdan, dissertasiya işinin elmi yeniliyi aşağıdakı kimi ümumiləşdirilə bilər:

- Azərbaycanın hərbi əməkdaşlıq əlaqələri ilk dəfə olaraq region və regiondan kənar ölkələr üzrə ayrı-ayrılıqda təhlil edilərək, bu münasibətlərin indiki və yaxın gələcəkdəki dinamikası və inkişaf perspektivləri müəyyənləşdirilmişdir;
- İlk dəfə olaraq Azərbaycanın beynəlxalq hərbi əməkdaşlıq əlaqələri ordu quruculuğu istiqamətində ölkədə aparılan daxili islahatlarla paralel tədqiq olunmuşdur;
- Azərbaycanın beynəlxalq hərbi əməkdaşlıq əlaqələri bütün istiqamətlər üzrə (hərbi, hərbi-siyasi, hərbi təhsil, hərbi-texniki, hərbi tibb, hərbi idman və s.) geniş təhlil edilmişdir;
- Hərbi-strateji müttəfiqlik səviyyəsinə qədər yüksəlmiş Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının inkişaf dinamikası müstəqilliyin ilk illərindən bu günədək ətraflı tədqiq edilərək, bu əlaqələrin gələcəkdə inkişafının və dərinləşməsinin regional təhlükəsizlik baxımından əhəmiyyəti açıqlanmış, eyni zamanda regionda həyata keçirilən enerji və nəqliyyat layihələrinin təhlükəsizliyinin təmin olunmasında Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli hərbi əməkdaşlığının, birgə keçirilən təlimlərin rolu araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın nəticələri Azərbaycan Respublikasının hərbi sahədə beynəlxalq əməkdaşlığının mahiyyəti və məqsədləri, eyni zamanda bu əlaqələrin ölkənin xarici və eləcə də müdafiə siyasətindəki yeri və rolu, müasir inkişaf səviyyəsi və gələcək perspektivlərinin müəyyənləşdirilməsi prosesində nəzərə alına bilər.

Tədqiqat işinin praktiki əhəmiyyətinə gəldikdə isə, onun materialları mövzu ilə bağlı yeni tədqiqatların aparılmasında, monoqrafiyaların, elmi və publisistik məqalələrin, xüsusi təyinatlı məktəblər üçün dərs vəsaitlərinin, fənn proqramlarının, mühazirə mətnlərinin və s. hazırlanmasında, eləcə də tədris prosesində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" və "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedralarının birgə iclasında müzakirə edilmişdir. Tədqiqat işində irəli sürülən əsas müddəalar və nəticələr ölkə daxilində və xaricdə çap olunmuş elmi məqalələrdə və elmi konfrans materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələri daxil olmaqla ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, on yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat və ixtisarların siyahısından ibarətdir. Dissertasiyanın işarə ilə ümumi həcmi 279391 (ədəbiyyat siyahısı və ixtisarlar istisna olmaqla) işarə təşkil edir. Giriş-18119, I Fəsil- 67646, II Fəsil-135009, III Fəsil-49279, Nəticə-9338 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi təhlil edilir, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, əsas müddəaları, elmi yeniliyi, dissertasiya işinin nəzəri və praktiki əhəmiyyəti göstərilir.

Dissertasiyanın **I-ci fəsli "Azərbaycan Respublikasının beynəlxalq hərbi əlaqələrinin qurulması"** adlanır və üç yarımfəsildən ibarətdir. **"Azərbaycan Xalq Cümhuriyyətinin xarici dövlətlərlə hərbi əməkdaşlığı"** adlanan **1-ci yarımfəsildə** Şərqdə yaradılmış ilk demokratik respublikanın mürəkkəb tarixi şəraitdə ərazi bütövlüyünün təmin edilməsi, ordu quruculuğu, hərbi-siyasi müttəfiqlərin əldə edilməsi istiqamətində xarici dövlətlərlə əməkdaşlıq əlaqələri tədqiq edilir. Bu əməkdaşlığın ən bariz nümunəsi müstəqil Azərbaycanın sələfi olan Azərbaycan Xalq Cümhuriyyətinin XX əsrin əvvəllərində hərbi sahədə Osmanlı dövləti ilə münasibətləridir. Çox mürəkkəb tarixi şəraitdə məhz Osmanlı Türkiyəsinin hərbi yardımı nəticəsində gənc Azərbaycan dövləti 1918-ci il mayın 28-də bəyan etdiyi

müstəqilliyini möhkəmləndirmiş və milli ordu quruculuğunu həyata keçirmişdir. İki xalq arasında tarixin müxtəlif dönəmlərində mövcud olmuş münasibətlər XX əsrin əvvəlində artıq dövlətlərarası əməkdaşlığa əsas olmuş, hərbi-siyasi əlaqələrin təməlini qoymuşdur. 1918-ci il iyunun 4-də AXC ilə Osmanlı Türkiyəsi arasında imzalanmış dostluq müqaviləsi bu əməkdaşlığın hüquqi əsasını daha da möhkəmləndirdi.

1919-cü ilin iyun ayında Azərbaycan Xalq Cümhuriyyəti ilə Gürcüstan Respublikası arasında imzalanmış hərbi-müdafiə müqaviləsi Azərbaycan-Gürcüstan hərbi əməkdaşlıq əlaqələrinin təməlini qoydu. Müqaviləyə əlavə olaraq iki ölkə arasında imzalanmış hərbi-texniki saziş əsasında Azərbaycanın qoşun bölmələrinin maddi-texniki imkanları yaxşılaşdırıldı. Qeyd etmək lazımdır ki, Azərbaycanın ilk Hərbi Attaşeliyi də məhz Gürcüstanda təsis edilmişdi.

Beləliklə, Cümhuriyyət dövründə xarici dövlətlərlə hərbi sahədə əməkdaşlıq əlaqələrinin həyata keçirilməsi müasir Azərbaycan Respublikasının beynəlxalq hərbi əməkdaşlıq əlaqələrinin tarixi köklərə malik olduğunu nümayiş etdirir.

Birinci fəslin **“Azərbaycan Respublikası Silahlı Qüvvələrinin inkişaf mərhələləri: ölkədaxili islahatlar və hərbi əməkdaşlıq”** adlanan **2-ci yarımfəslində** 1991-ci ildə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında ordu quruculuğu prosesi üç dövrə (birinci - 1991-ci ildən 1993-cü ilin iyun ayınadək davam edən dövr; ikinci - Heydər Əliyevin hakimiyyət illərini (1993-oktyabr 2003) əhatə edən dövr; üçüncü - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin prezident seçildiyi 2003-cü ilin oktyabrından bu günədək davam edən dövr) bölünərək tədqiq edilmiş, mövcud istiqamətdə ölkədaxili islahatlarla yanaşı region və regiondan kənar dövlətlərlə, beynəlxalq və regional təşkilatlarla hərbi sahədə həyata keçirilən əməkdaşlıq geniş təhlil edilmişdir. Ordu quruculuğunun birinci dövründə hərbi quruculuq istiqamətində aparılan işlərin pərakəndiliyi, peşəkar hərbçi kadrların bu proseslərdən uzaqlaşdırılması ordu quruculuğu istiqamətində islahatların aparılmasını çətinləşdirirdi. Bu dövrdə peşəkar hərbçi kadrların çatışmaması əsas problem olaraq qalırdı və mövcud problemin Türkiyə Respublikasının köməkliyi ilə həllinə dair danışıqlar aparılmışdı. Danışıqların nəticəsi ola-

raq, 1992-ci il avqustun 11-də “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı hərbi təlim-təhsil haqqında Müqavilə”nin imzalanması ilə Azərbaycan Respublikasının xarici dövlətlərlə hərbi sahədə əməkdaşlığının əsası qoyuldu. Müqaviləyə əsasən Türkiyə Silahlı Qüvvələrinin zabit və gizir heyəti Azərbaycana ezam olunmuş, eyni zamanda iki yüz azərbaycanlı gənc hərbi məktəblərdə təhsil almaq üçün Türkiyəyə göndərilmişdir[18]. Lakin bütün bunlara baxmayaraq, ölkə iqtisadiyyatının tənəzzülə uğraması, respublikada qeyri-sabit ictimai-siyasi vəziyyətin hökm sürməsi, xarici siyasət sahəsində səhvlərə yol verilməsi, ordu quruculuğunda biliyi və səriştəsi olmayan insanların yüksək vəzifələrə təyini erməni separatçıları tərəfindən Azərbaycan torpaqlarının işğalına şərait yaradırdı.

1993-cü ilin iyun ayında Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışı bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da dönüş nöqtəsi oldu. Dəfələrlə çıxışlarında hərbi quruculuq sahəsində xarici dövlətlərlə əməkdaşlığın zəruriliyini vurğulayan Heydər Əliyev, mövcud istiqamətdə mühüm addımlar atmışdır. Belə ki, Azərbaycanın bir çox xarici dövlətlərlə ikitərəfli hərbi əməkdaşlıq əlaqələrinin qurulması, hərbi-siyasi müttəfiqlərin əldə edilməsi, NATO-nun Sülh naminə tərəfdaşlıq proqramına qoşulması Heydər Əliyevin tarixi xidmətlərindəndir. Beləliklə, ordu quruculuğunun bu dövründə Azərbaycanda vahid komandanlığa tabe olan nizami ordu formalaşdırıldı. Digər tərəfdən, ölkə başçısı ordunun davamlı olaraq inkişaf etdirilməsini tövsiyə edirdi[19].

Heydər Əliyevin ordu quruculuğu sahəsində əsasını qoyduğu strategiya 2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Ordunun gücləndirilməsi, onun döyüş qabiliyyətinin artırılması, modernləşdirilməsi və ən müasir hərbi silah və texnika ilə təchizi məsələsi hərbi quruculuq sahəsində dövlət siyasətinin əsas istiqamətlərini

---

[18] Aslanlı A. Türkiye-Azerbaycan askeri ilişkileri – 2. [Elektron resurs] / - 22 aprel, 2011. URL: http://www.qafsam.org/page/244/az

[19] Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyevin nitqi – 25 iyun 1998-ci il // Azərbaycan. – 1998, 26 iyun

təşkil etdi. Hərbi quruculuq sahəsində həyata keçirilən ölkədaxili islahatlarla yanaşı xarici dövlətlər və beynəlxalq təşkilatlarla əməkdaşlıq davam etdirildi. Azərbaycanın hərbi təhsil sisteminin NATO standartlarına uyğunlaşdırılması, xarici dövlətlərdə zabit kadrların hazırlanması, ordunun ən müasir silah və sursatla təmin edilməsi məqsədilə xarici dövlətlərlə hərbi-texniki əməkdaşlıq, mövcud sahədə xarici şirkətlərlə birgə layihələrin həyata keçirilməsi beynəlxalq hərbi əməkdaşlığın əsas istiqamətlərini təşkil etdi.

Birinci fəslin **"Beynəlxalq hərbi əməkdaşlığın əsas istiqamətləri"** adlanan **3-cü yarımfəslində** hərbi, hərbi-siyasi, hərbi təhsil, hərbi-texniki, hərbi tibb, hərbi idman sahəsində Azərbaycanın xarici dövlətlər və beynəlxalq təşkilatlarla əməkdaşlığı ətraflı araşdırılır. Eyni zamanda burada Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyi sahəsində beynəlxalq təşkilatlar çərçivəsində, habelə ikitərəfli formatda əməkdaşlıq əlaqələri, beynəlxalq sülhün və sabitliyin qorunub saxlanmasına verdiyi töhfə, silahlara nəzarət və onların yayılmaması sahəsində müvafiq beynəlxalq müqavilələrin iştirakçısı olduğu barədə məsələlər işıqlandırılır.

Dissertasiyanın **"Azərbaycan Respublikasının xarici dövlətlərlə hərbi əməkdaşlığı"** adlanan **II-ci fəsli** 4 yarımfəsil, 3 altyarımfəsildən ibarətdir. Bu fəslin **"Qonşu dövlətlərlə hərbi əməkdaşlıq"** adlanan **1-ci yarımfəslinin "Azərbaycan-Türkiyə hərbi müttəfiqliyi"** adlanan **1-ci altyarımfəslində** Azərbaycanın Türkiyə Respublikası ilə hərbi əməkdaşlıq əlaqələri araşdırılmış, bu əməkdaşlığın hüquqi bazası, inkişaf dinamikası və gələcək perspektivləri tədqiq edilmişdir. Burada qeyd edilir ki, Azərbaycanın qonşu dövlətlərlə hərbi sahədə həyata keçirdiyi, ümumiyyətlə beynəlxalq hərbi əməkdaşlığında Türkiyə Respublikası mühüm yer tutur. Bunu şərtləndirən əsas amillər içərisində ilk növbədə, mövcud olan əməkdaşlıq əlaqələrinin dərin tarixi köklərə bağlı olmasını qeyd etmək vacibdir. Digər tərəfdən, Türkiyənin regionun həm iqtisadi, həm hərbi cəhətdən güclü dövləti olması Azərbaycanın bu ölkə ilə əməkdaşlığa marağını artırır. Ən vacib məqamlardan biri də 30 ilə yaxın davam etmiş Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində Türkiyə Respublikasının daim Azərbaycanın mövqeyini dəstəkləyərək, onun hərbi-siyasi müttəfiqi kimi çıxış etməsidir. Eyni zamanda Azərbaycan da Türki-

yənin Qafqaz siyasətində müstəsna yer tutaraq, onun tərəfindən strateji əhəmiyyətli bir ölkə kimi qiymətləndirilir[20]. 2021-ci il iyunun 15-də iki ölkə arasında imzalanmış Şuşa Bəyannaməsi Türkiyənin Azərbaycanın hərbi-strateji müttəfiqi olduğunu bir daha təsdiqlədi.

Türkiyə Azərbaycan Silahlı Qüvvələri üçün hərbçi kadrların hazırlanması sahəsində yardım göstərən ölkələr sırasında birinci yerdədir. Qeyd etmək lazımdır ki, 7000-dən çox azərbaycanlı zabit Türkiyə hərbi məktəblərində təhsil almışdır[21] və almaqdadırlar.

Azərbaycan-Türkiyə hərbi münasibətlərinin digər əsas istiqamətini hərbi-texniki əməkdaşlıq təşkil edir. Hər iki ölkənin maraqlarına cavab verən hərbi-texniki əməkdaşlığa hərbi silah və sursatların istehsalı üzrə birgə layihələrin həyata keçirilməsi, birgə müəssisələrin yaradılması, hərbi məhsulların idxalı və ixracı və s. daxildir. Qeyd etmək lazımdır ki, Türkiyə müdafiə sənayesinin "Baykar" şirkətinin istehsalı olan pilotsuz uçuş aparatlarının torpaqlarımızın azad olunması zamanı düşmən texnikasının məhv edilməsində xüsusi rolu olmuşdur.

2013-cü ildən başlayaraq Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında birgə hərbi təlimlərin keçirilməsi hər iki ölkə ordularının döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələr arasında təcrübə mübadiləsi, müxtəlif qoşun növləri arasında qarşılıqlı fəaliyyətə nail olmaq baxımından böyük əhəmiyyət kəsb edir.

Dövlət sərhədinin mühafizəsinin effektliyini artırmaq məqsədilə Azərbaycan qonşu dövlətlərin müvafiq strukturları ilə əməkdaşlığa böyük önəm verir. Azərbaycan-Türkiyə hərbi münasibətlərinin bir istiqamətini də məhz sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi sahəsində əməkdaşlıq təşkil edir.

Qeyd etmək lazımdır ki, iki ölkə arasında hərbi tibb sahəsində də əməkdaşlıq əlaqələri çox yüksək səviyyədədir. Türkiyə Respublikası Azərbaycana hərbi tibb mütəxəssislərinin hazırlanması sahəsində dəstək verən ölkələr arasında ön sırada dayanır. İkinci Qarabağ

---

[20]Qasımlı, M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): [2 hissədə] / M.Qasımlı. - Bakı: Mütərcim, - h. 1. - 2015, - s.428-429

[21] Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə (məqalələr toplusu) /: Bakı: BEST-TMS MMC, - 2016. – s. 290

müharibəsi qazilərinin müalicəsində də Türkiyə Azərbaycana böyük yardım göstərmiş və hal-hazırda bu proses davam etdirilməkdədir.

Azərbaycanın ən böyük region qonşusu olan Rusiya Federasiyası ilə hərbi, hərbi-texniki sahədə əməkdaşlıq əlaqələri **1-ci yarımfəslin "Azərbaycan-Rusiya hərbi işbirliyi"** adlanan **2-ci altyarımfəslində** araşdırılmışdır. Mürəkkəb inkişaf yolu keçərək etimadsızlıqdan strateji tərəfdaşlığa və mehriban qonşuluğa qədər yüksəlmiş Azərbaycan-Rusiya münasibətlərinin əsas istiqamətlərdən birini müdafiə sahəsində əməkdaşlıq təşkil edir. İki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlıq uğurla inkişaf edir. Rusiya Federasiyasından alınan hərbi texnika və silahları istismar edə biləcək savadlı mütəxəssislərin hazırlanması baxımından Azərbaycan üçün bu ölkə ilə hərbi təhsil sahəsində əməkdaşlıq böyük əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, Rusiya hərbi məktəblərində bir sıra ixtisaslar üzrə azərbaycanlı hərbçilər ödənişsiz əsaslarla təhsil alırlar. İki ölkənin Hərbi Dəniz Qüvvələri, sərhəd xidmətləri arasında da qarşılıqlı əlaqələr genişlənməkdədir.

2022-ci il fevralın 22-də Azərbaycan ilə Rusiya arasında müttəfiqlik haqqında Bəyannamənin imzalanması və həmin sənəddə hərbi, hərbi-siyasi və hərbi-texniki əməkdaşlığa dair müddəaların yer alması mövcud sahədə ölkələrarası əməkdaşlıq əlaqələrinin daha da genişlənməsi və yüksələn xəttlə inkişafı üçün zəmin yaratmaqla yanaşı, bir daha regional sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsinə töhfə verəcəyinə də əminlik yaradır.

II fəslin **1-ci yarımfəslinin 3-cü altyarımfəsli "Azərbaycanın İran İslam Respublikası, Gürcüstan, Qazaxıstan və Türkmənistan ilə hərbi əməkdaşlığı"** adlanır. Burada Azərbaycana qonşu olan digər ölkələr – İran, Gürcüstan, Qazaxıstan və Türkmənistan ilə müdafiə sahəsində əməkdaşlıq əlaqələri araşdırılmış, eyni zamanda qonşu dövlətlərlə çoxtərəfli əməkdaşlığın əsas istiqamətləri tədqiq edilmişdir.

Azərbaycanın İran İslam Respublikası ilə hərbi sahədə əməkdaşlıq haqqında sazişin 2005-ci ilin may ayında Tehran şəhərində imzalanmasına baxmayaraq, ölkələrarası münasibətlərdə müəyyən dövr ərzində yaşanan soyuqluq və gərginlik bu əməkdaşlıq əlaqələrinin də inkişafına öz təsirini göstərmişdir. 2014-çü il aprelin 9-da

Azərbaycan Prezidenti İlham Əliyevin İrana, noyabr ayında isə İran Prezidenti Həsən Ruhaninin Azərbaycana rəsmi səfəri və səfər çərçivəsində iki ölkə arasında dostluq və əməkdaşlığa dair Birgə Bəyannamənin imzalanması iki ölkə arasındakı soyuqluq buzlarını əritdi. Azərbaycan-İran siyasi münasibətlərinin yeni səhifəyə qədəm qoyması iki ölkə arasında hərbi əməkdaşlıq əlaqələrinin də inkişafına təkan verdi. Hərbi nümayəndəliklərin qarşılıqlı səfərlərində aparılan müzakirələrin nəticələrindən aydın olur ki, hər iki tərəf müdafiə sənayesi sahəsində əməkdaşlığa maraq göstərir. Hərbi ekspertlərin qeyd etdiyi kimi, Azərbaycan Ordusunda İran istehsalı olan silahlardan (D-30 topları, 107 millimetrlik reaktiv yaylım atəş sistemləri) istifadə iki ölkə arasında hərbi ticarətin olduğunu göstərir[22]. Azərbaycan və İran Hərbi Dəniz Qüvvələrinin (HDQ) hərbi gəmilərinin qarşılıqlı dostluq səfərlərinin həyata keçirilməsi də, öz növbəsində müdafiə sahəsində ikitərəfli əməkdaşlıq əlaqələrinin inkişafına müsbət təsir göstərir. Məlum olduğu kimi, Azərbaycanın ən uzun dövlət sərhədi İranladır. Bu baxımdan, iki ölkənin sərhəd xidmətləri arasında da əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi hər iki tərəfin maraq dairəsindədir. Lakin qeyd etmək lazımdır ki, iki ölkə arasında qarşılıqlı faydalı hərbi əməkdaşlıq üçün böyük potensialın olmasına baxmayaraq, Azərbaycan-İran münasibətlərində son illər (Seyid İbrahim Rəisinin prezidentlik dövrü (2021-may 2024)) yaranan gərginlik mövcud sahədə ölkələrarası əlaqələrin dinamikasına öz təsirini göstərmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin də söylədiyi kimi: "*Mən İranın əvvəlki üç prezidenti ilə - Prezident Hatəmi, Prezident Əhmədinejad və Prezident Ruhani ilə işləmişəm. Bütün bu illər ərzində heç vaxt indiki vəziyyətimizə oxşar bir şey olmayıb. Heç vaxt Azərbaycana qarşı nifrət və təhdid dolu sözlər işlədilməyib, sərhədimizdə heç bir hərbi təlim keçirilməyib... Biz bu vəziyyətin daha tez bitməsini istəyirik. Biz bütün qonşularımızla sülh və dostluq münasibətləri istəyirik*"[23].

---

[22] Azərbaycan İrandan dağıdıcı silah alır?: [Elektron resurs] / - 21 avqust, 2017. URL: https://ordu.az/az/news/122167/azerbaycan-irandan-dagidici-silahlar-alir-

[23] İlham Əliyev Bakıda keçirilən "Orta Dəhliz boyunca: geopolitika, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda iştirak edib: [Elektron resurs]/ - 25 noyabr, 2022.URL:https://president.az/az/articles/view/57968

Azərbaycanın qonşu dövlətlər arasında ən yaxın mütəffiqlərindən biri də Gürcüstan Respublikasıdır. 2002-ci il dekabrın 16-da Azərbaycan və Gürcüstan müdafiə nazirlikləri arasında hərbi sahədə əməkdaşlığa dair sazişin imzalanmasından ötən müddət ərzində hər iki ölkənin dövlət başçılarının və hərbi qurum rəhbərlərinin qarşılıqlı səfərləri və görüşləri mövcud münasibətlərin genişləndirilməsinə müsbət təsir göstərmişdir. İki ölkə arasında hərbi sahədə əməkdaşlığın genişlənməsi regionun təhlükəsizliyinin təmin edilməsi baxımdan mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan-Qazaxıstan, Azərbaycan-Türkmənistan münasibətlərində qarşılıqlı maraqlar əsasında həyata keçirilən əməkdaşlıq sahələrindən biri də hərbi sahədə əlaqələrdi. Hərbi nümayəndə heyətlərinin qarşılıqlı səfərləri ölkələr arasında müdafiə sahəsində əməkdaşlıq əlaqələrinin inkişafına müsbət təsir göstərərək bu münasibətlərin daha da genişlənməsi üçün yaxşı zəmin yaradır.

Azərbaycanın qonşu dövlətlərlə hərbi sahədə coxtərəfli formatda da əməkdaşlıq əlaqələri mövcuddur. Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli hərbi əməkdaşlığı bu qəbildən olan əməkdaşlıq formatlarından biridir. Mütəxəssislərin də qeyd etdiyi kimi, mövcud üçtərəfli əməkdaşlığın formalaşması əsasında tarixi və mədəni əlaqələr, coğrafi qonşuluq, vahid tranzit dəhlizinin tərkib hissələri olmaq dayanır[24]. 2018-ci ilin mart ayında müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması bu ölkələrin hərbi-strateji müttəfiq olduqları barədə fikir söyləməyə əsas verir. Beynəlxalq əhəmiyyətli enerji və nəqliyyat layihələrinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə üç ölkənin silahlı qüvvələri arasında hərbi təlimlərin keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

**“Azərbaycan-ABŞ hərbi əlaqələri”** adlanan II-ci fəslin **2-ci yarımfəslində** iki ölkə arasında hərbi əməkdaşlığın əsas istiqamətləri və dinamikası araşdırılmışdır. Burada qeyd olunur ki, 11 sentyabr 2001-ci il hadisələrindən sonra Azərbaycanın ABŞ-ın elan etdiyi antiterror koalisiyasına qoşulması iki dövlət arasında hərbi sahədə

---

[24] Həbibbəyli, Ə. “Azərbaycan-Gürcüstan-Türkiyə” – uğurlu üçtərəfli əməkdaşlığın 25 ili: [Elektron resurs] / - 8 iyun, 2017.URL:http://newtimes.az/az/processestrends/5174/

əməkdaşlığa yeni impuls verdi və mövcud əlaqələrin genişlənməsinə səbəb oldu. Bu baxımdan, Azərbaycan-ABŞ hərbi əməkdaşlığı iki - 2001-ci il sentyabrın 11-də baş vermiş terror hadisələrinə qədərki və bu hadisələrdən sonrakı dövrə ayrılaraq tədqiq edilmişdir. Məhz 11 sentyabr terror aktlarından sonra ABŞ Konqresi qəbul etdiyi qərarla prezidentə "Azadlığı Müdafiə Aktı" adlı qanunun 907-ci bölməsinə edilən düzəlişin (həmin düzəlişə əsasən ABŞ hökumətinin Azərbaycanın rəsmi strukturlarına yardım göstərilməsi qadağan olunub) qüvvəsini dayandırmaq imkanı yaratdı. 2001-ci il oktyabrın 7-də ABŞ Əfqanıstanda hərbi əməliyyatlara başladıqdan sonra Azərbaycan öz hava məkanını və digər mühüm obyektlərini Birləşmiş Ştatların sərəncamına verdi. Bununla Azərbaycan Əfqanıstanda dislokasiya olunmuş NATO hərbi kontingentinin təchizatına mühüm dəstək göstərmiş və Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (İSAF) üçün məhvetmə gücünə malik olmayan malların tranzitinin 40 faizini təmin etmiş oldu.

Lakin iki ölkə arasındakı münasibətlərə mane olan amillərin mövcudluğu ("907-ci düzəlişin" ləğv edilməməsi, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi ABŞ-ın uzun illər Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində qətiyyətli addımlar atmaması, ümumiyyətlə, ABŞ-ın bu məsələyə qeyri-prinsipal və ikili yanaşması) zaman-zaman özünü büruzə vermiş və bu da digər sahələrlə yanaşı hərbi sahədə də dövlətlərarası münasibətlərə öz mənfi təsirini göstərmişdir və göstərməkdədir.

Burada həmçinin Azərbaycan Silahlı Qüvvələri ilə ABŞ-ın Oklahoma ştatının milli qvardiyası arasında dinamik inkişaf edən əməkdaşlıq əlaqələri araşdırılmışdır.

"**Azərbaycanın Avropa dövlətləri ilə hərbi əməkdaşlığı"** adlanan **3-cü yarımfəsildə** bu ölkələr ilə müdafiə sahəsində əməkdaşlıq əlaqələri təhlil edilərək, əməkdaşlığın hüquqi bazası, inkişaf dinamikası və perspektivləri araşdırılır. Azərbaycanın Avropa ölkələri ilə hərbi sahədə hüquqi əsasını tərəflərarası bağlanmış saziş və müqavilələr təşkil edən həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıq əlaqələri mövcuddur. Bu ölkələr ilə hərbi təhsil sahəsində əməkdaşlıq Azərbaycanın hərbi təhsil sisteminin NATO standartlarına uyğunlaşdırılmasında, eyni zamanda Avropa ölkələri tərəfindən Azərbaycan Or-

dusunun hərbçiləri üçün müxtəlif təlim kurslarının təşkili xarici dillərin mənimsənilməsində, hərbçilərimizin peşəkarlıq səviyyəsinin artırılmasında mühüm rol oynayır. Azərbaycan ilə Avropanın ən böyük silah istehsalçıları olan İtaliya və Fransa şirkətləri arasında əməkdaşlığa dair yol xəritələrinin müəyyənləşdirilməsi, birgə istehsalın həyata keçirilməsi istiqamətində danışıqların aparılması, bəzi şirkətlərlə artıq əməkdaşlığın həyata keçirilməsi Azərbaycan Ordusunun ən müasir silah və texnika ilə təchizində əhəmiyyətli rol oynayacaq.

Avropa ölkələri ilə əməkdaşlığın digər bir istiqamətini İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi sahəsində əməkdaşlıq təşkil edir. Buna misal olaraq Birləşmiş Krallığın həmin ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənərək zərərləşdirilməsinə dəstəyini göstərmək olar.

II-ci fəslin **"Azərbaycanın Asiya və Afrika dövlətləri ilə hərbi əlaqələri"** adlanan **4-cü yarımfəslində** Azərbaycan Respublikasının Asiya və Afrika ölkələri ilə hərbi sahədə əməkdaşlıq əlaqələri araşdırılmışdır. Cənubi Asiyanın ən nüfuzlu və hərbi-siyasi baxımdan güclü dövlətlərindən biri olan Pakistan İslam Respublikası ilə əməkdaşlıq əlaqələrinin tədqiqi bu ölkənin Azərbaycanın hərbi-strateji müttəfiqi olduğunu söyləmə əsas verir. Hələ müstəqilliyin ilk illərində Qarabag müharibəsindəki uğursuzluqların nəticəsini məhz Azərbaycanın real siyasi və hərbi müttəfiqlərinin olmamasında görən Heydər Əliyev, dövlətçiliyin belə bir mürəkkəb vaxtında ölkəmizə Türkiyə ilə yanaşı siyasi və hərbi sahələrdə yardım göstərən Pakistanın simasında müttəfiq əldə etməsini yüksək qiymətləndirirdi[25].

İkinci Qarabağ müharibəsi zamanı Pakistan Xarici İşlər Nazirliyi tərəfindən İslam Respublikasının Azərbaycan xalqının yanında olduğu və ölkəmizin ərazi bütövlüyünü dəstəklədiyi barədə bəyanatın verilməsi bunu bir daha təsdiqlədi. Pakistan, eyni zamanda Azərbaycan Silahlı Qüvvələri üçün kadr hazırlığı sahəsində dəstək göstərən ölkələr sırasındadır. Burada iki ölkə arasında hərbi təhsil, hərbi-texniki sahədə əməkdaşlığın inkişaf dinamikası və perspektivləri tədqiq

---

[25] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 clddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 4. – 1997. – s.346-347

edilir. Həmçinin Azərbaycan-Pakistan əlaqələri üçtərəfli formatda da (Azərbaycan-Pakistan-Türkiyə) araşdırılır. Üçtərəfli əməkdaşlığın regionun təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayacağını vurğulayan Prezident İlham Əliyev demişdir: *"Biz artıq Azərbaycan, Türkiyə və Pakistan arasında... müdafiə sahəsində üçtərəfli əməkdaşlıq formatının yaxşı nəticələrinin şahidi olduq. Hesab edirəm ki, biz səylərimizi birləşdirərək mövqelərimizi gücləndirəcəyik və sülhə töhfə verəcəyik"*[26].

Azərbaycan Asiya qitəsinin digər ölkəsi - İsrail dövləti ilə də etibarlı hərbi tərəfdaşlıq münasibətlərinə malikdir. Azərbaycanın müdafiə sənayesinin formalaşmasında və ordunun müasir silahlarla təchiz edilməsində qabaqcıl texnologiyalara malik İsrail əhəmiyyətli müttəfiq kimi mühüm rol oynayır. Burada iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlıq, birgə layihələrin həyata keçirilməsi məsələləri geniş tədqiq edilir. Eyni zamanda burada Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığı, Bəhreyn Krallığı, İordaniya Haşimilər Krallığı, Birləşmiş Ərəb Əmirlikləri, Çin Xalq Respublikası, Koreya Respublikası, Mərkəzi Asiya dövlətləri - Tacikistan, Özbəkistan və Qırğızıstan ilə hərbi əməkdaşlıq əlaqələrinin, Cənubi Afrika Respublikası ilə müdafiə sənayesi sahəsində həyata keçirilən birgə layihələrin əhəmiyyəti açıqlanır.

Dissertasiyanın **III-cü fəsli "Azərbaycan Respublikasının beynəlxalq və regional təşkilatlarla hərbi əməkdaşlığı"** adlanır və 3 yarımfəsildən ibarətdir. "**Azərbaycan-NATO hərbi əməkdaşlığı"** adlanan **1-ci yarımfəsildə** Azərbaycanın 1994-cü ildə NATO-nun SNT Proqramına qoşulmaqla müdafiə sahəsində Alyansla başlanan əməkdaşlığının əsas istiqamətləri araşdırılır. Burada Azərbaycan-NATO hərbi əməkdaşlığının əsas mexanizmi sayılan müxtəlif proqramların mahiyyəti açıqlanmış, Azərbaycan Silahlı Qüvvələrinin, eyni zamanda Dövlət Sərhəd Xidməti və Dövlər Təhlükəsizlik Xidmətinin bu proqramlar çərçivəsində üzərlərinə götürdükləri məqsədlərin icrası istiqamətində fəaliyyətləri tədqiq edilmişdir. Qeyd etmək la-

[26] İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsi sədrinin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib: [Elektron resurs] / - 3 mart, 2021. URL:https://president.az/articles/50785

zımdır ki, Azərbaycan-NATO hərbi əməkdaşlığı hərbi təlim və tədrisdə müasir təhsil standartlarının tətbiqi, xarici dillərin öyrənilməsi və bu sahədə tədrisin təkmilləşdirilməsi, eyni zamanda Alyansa üzv dövlətlərin müvafiq qurumları ilə əlaqələrin genişləndirilməsi üçün əlverişli şərait yaratmışdı. Azərbaycan-NATO münasibətlərinin 30 illlik tarixi dövrü ərzində hərbi sahədə əməkdaşlıq əlaqələri ildən-ilə genişlənmiş və mövcud sahədə əhəmiyyətli nəticələr əldə edilmişdir.

**İkinci yarımfəsil "Azərbaycan hərbçilərinin BMT-nin sülhməramlı əməliyyatlarında iştirakı"** adlanır. Burada Beynəlxalq Millətlər Təşkilatının sülhməramlı missiyasının mahiyyəti açıqlanır və Azərbaycan hərbçilərinin dünyanın müxtəlif bölgələrində BMT-nin mandatı altında keçirilən sülhməramlı əməliyyatlarda fəaliyyəti araşdırılır. Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasına əsasən böhranların aradan qaldırılması məqsədilə NATO dövlətlərinin qüvvələri ilə birgə müvafiq sülhməramlı əməliyyatlarda iştirak Azərbaycan Respublikasının müdafiə siyasətinin əsas istiqamətlərindən hesab olunur[27].

Sülhməramlı əməliyyatlarda iştirak etmək məqsədilə 1997-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sülhməramlı bölüyü, 2001-ci ildə isə sülhməramlı taboru yaradılmışdır. Azərbaycan hərbçiləri 1999-cu ildən başlayaraq BMT-nin sülhməramlı missiyalarında (KFOR - Kosovo, İSAF-Əfqanıstan, Çox Millətli Qüvvələr – İraq, UNMİSS-Cənubi Sudan Respublikası) iştirak edib və hal-hazırda iştirak etməkdədirlər. Bu da öz növbəsində, Azərbaycan sülhməramlı kontingentinin fəaliyyətinin və dünyada sülhün təmin edilməsinə verdiyi töhfənin yüksək səviyyədə olduğunu nümayiş etdirir. Digər tərəfdən, Azərbaycan hərbçilərinin sülhməramlı missiyalarda nümunəvi xidməti ölkənin beynəlxalq aləmdə nüfuzunu artırır.

**"Azərbaycanın MDB daxilindəki hərbi əlaqələri"** adlanan **3-cü yarımfəsildə** Azərbaycanın Müstəqil Dövlətlər Birliyi çərçivəsində hərbi əməkdaşlığının əsas istiqamətləri tədqiq edilir. Bura MDB üzv ölkələrinin bilavasitə Müdafiə Nazirləri səviyyəsində hərbi və

---

[27]Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. [Elektron resurs]/URL:http://www.mns.gov.az/img/3766779_5me02.%20Milli_Tehlukesizlik_Konsepsiyasi.pdf

müdafiə məsələləri ilə bağlı müzakirələrin aparılması, sərhəd xidməti, terrorçuluq və ekstremizm, eləcə də cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq daxildir.

Müasir mərhələdə regionda mövcud olan və yarana biləcək təhlükələr nəzərə alınmaqla hərbi sahədə əməkdaşlığın çox böyük əhəmiyyət kəsb etdiyini vurğulayan Azərbaycan Prezidenti İlham Əliyev, MDB üzvü olan ölkələrin sabitliyinin və davamlı inkişafının çox cəhətdən bu dövlətlərin təhlükəsizliyini təmin edən orqanların qarşılıqlı fəaliyyətindən asılı olduğunu dəfələrlə öz çıxışlarında qeyd etmişdir[28]. Eyni zamanda MDB ölkələri arasında hərbi-siyasi əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi dövlətlərarası münasibətlərin möhkəmləndirilməsinə, inteqrasiya proseslərinin inkişafına, Birliyə üzv ölkələrin hər birinin milli maraqlarına cavab verən ümumi xarici siyasət kursunun formalaşmasına xidmət edir.

Dissertasiyanın **Nəticə** hissəsində ümumiləşdirilmələr aparılaraq qeyd edilir ki, Azərbaycanın beynəlxalq hərbi əməkdaşlığının əsas məqsədlərinə ölkənin ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının təmin edilməsində beynəlxalq təcrübənin öyrənilməsi və hərbi-siyasi tərəfdaşların, müttəfiqlərin əldə edilməsi, ölkənin silahlı qüvvələrinin müasir standartlara cavab verən peşəkar orduya çevrilməsi və ən müasir silah və texnikalar ilə təchiz edilməsi, xarici dövlətlərin müdafiə sənayesi kompleksləri ilə birgə layihələrin həyata keçirilməsi və qarşılıqlı faydalı hərbi-texniki əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi məsələləri daxildir. Daha sonra burada Türkiyə kimi hərbi-strateji müttəfiqin olmasının Azərbaycanın ilk növbədə, hərbi təhlükəsizliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyi qeyd edilir. 2021-ci ilin iyun ayında iki ölkə arasında Şuşa Bəyannaməsinin imzalanması ilə bu müttəfiqlik öz hüquqi əsasını möhkəmləndirdi. Bəyannamə birgə müdafiə mexanizmi kimi çıxış edərək, yaxın gələcəkdə iki ölkə arasında hərbi, hərbi-siyasi, hərbi-texniki əməkdaşlığın daha da genişləndirilməsi və dinamik inkişafı üçün yaxşı zəmin olacaqdır. Eyni zamanda, Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlığının uğurla davam etməsi,

---

[28] İlham Əliyev MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçılarını qəbul edib: [Elektron resurs] / - 30 oktyabr, 2019.URL:https://president.az/articles/34654

birgə hərbi təlimlərin keçirilməsi beynəlxalq əhəmiyyətli nəqliyyat və enerji layihələrinin təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynadığı qeyd olunur.

Beləliklə, Azərbaycan Respublikasının müasir dövrdə beynəlxalq hərbi əməkdaşlıq əlaqələrinin dinamikası bu əlaqələrin yüksələn xəttlə inkişaf edərək genişlənəcəyinə dair fikir söyləməyə əsas verir. Son illərin müşahidələri onu göstərir ki, Azərbaycan ilə müdafiə sahəsində əməkdaşlıq etməyə maraq göstərən ölkələrin sayı getdikcə artır. Buna səbəb olan amillərə Azərbaycanın Cənubi Qafqaz regionunda ən güclü orduya və inkişaf etmiş müdafiə sənayesi kompleksinə malik olması daxildir. Eyni zamanda İkinci Qarabağ müharibəsində Azərbaycanın əldə etdiyi Qələbə də bunu şərtləndirən əsas amillərdən biridir. Bunlarla yanaşı burada hərbi sahədə Azərbaycanın xarici dövlətlərlə ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin yaxın gələcəkdə daha da genişləndirilməsinə və bu əməkdaşlığın daha səmərəli nəticələr verməsinə dair konkret təklif və tövsiyələr irəli sürülmüşdür.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı dərc edilmiş elmi işlərində öz əksini tapmışdır:**

1. Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu //"Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının banisidir" mövzusunda doktorant və dissertantların elmi konfransının materialları, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı,- 2013,- s. 56-62
2. Azərbaycan-NATO hərbi əməkdaşlığı // AR Təhsil Nazirliyi, Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları, Bakı,- 2013,- c.II,- s. 264-266
3. Azərbaycan Respublikasının xarici dövlətlərlə hərbi-texniki əməkdaşlığı // -Bakı: "Milli təhlükəsizlik və hərbi elmlər" adlı jurnal, - 2015. № 1,- s. 30-33
4. Azərbaycan Respublikasının hərbi sahədə beynəlxalq əməkdaşlığının əsas istiqamətləri // -Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət

idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı.- 2015. № 3 (51),- s.235-246
5. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin inkişaf mərhələləri: ölkədaxili islahatlar, beynəlxalq hərbi əməkdaşlıq //-Bakı: "Hərbi bilik" adlı jurnal.-2017. № 3 (147),- s. 3-20
6. Azərbaycan Xalq Cümhuriyyətinin hərbi sahədə beynəlxalq əməkdaşlıq əlaqələri //"Azərbaycan Cümhuriyyəti-100" İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin hazırladığı kitab. Bakı,- 2018,- s. 367-386
7. Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli hərbi əməkdaşlığı // -Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı. -2019. № 2 (66),- s. 265-270
8. Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının inkişaf dinamikası //-Bakı: "Geostrategiya" jurnalı.- 2019. № 4 (52),- s. 37-43
9. Военное сотрудничество Азербайджанской Республики с Исламской Республикой Пакистан //-Türkiye: "Akademik Tarih ve Düşünce Dergisi".- 2019. № 6 (4), -s. 2077-2092
10. Военное сотрудничество Азербайджана с Россией: динамика развития отношений // "Приоритетные направления развития науки и образования" Сборник статей XIV Международной научно-практической конференции, -Пенза, -2020- s.45-49
11. Postmüharibə dövründə Azərbaycan Respublikasının hərbi sahədə beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişafı //-Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı. -2023. № 1 (83),- s.231-240

Dissertasiyanın müdafiəsi 13 fevral 2025-ci il tarixində saat $13^{00}$-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ -1073, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “10” yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 06.01.2025
Kağızın formatı: A5
Həcm:45467
Tiraj: 100